# Yeni Azərbaycan Partiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə “Xəzərin mühafizəsində birik, birlikdəyik” adlı təmizlik aksiyası keçirilib

## *12 avqust - “Xəzər günü” ilə əlaqədar keçirilən aksiyada 10 hektar ərazi tullantılardan təmizlənib*

Yeni Azərbaycan Partiyasının (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) təşkilatçılığı ilə dünən Bakının Buzovna qəsəbəsindəki çimərlik ərazisində dəniz sahilinin plastik və digər tullantılardan təmizlənməsi məqsədilə “Xəzərin mühafizəsində birik, birlikdəyik” devizi altında kütləvi təmizlik aksiyası keçirilib. YAP rəhbərliyi və rayon təşkilatlarının nümayəndələri, Milli Məclisin deputatları, ziyalılar, ETSN əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri, könüllülər, həmçinin “AzEkol” MMC, “Təmiz şəhər” ASC, “Azərsun Holdinq” MMC, Qafqaz Regional Ekoloji Mərkəzinin Azərbaycan ofisinin nümayəndələrinin iştirakı ilə keçirilən aksiyada 10 hektar ərazi tullantılardan təmizlənib, tullantılar çeşidlənərək aidiyyəti üzrə daşınıb.





*__Siyavuş Novruzov:__ Bu layihələr bilavasitə cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı əsasında həyata keçirilir*










*__Firdovsi Əliyev:__ Azərbaycan Xəzərətrafı dövlətlər arasında yeganə ölkədir ki, dənizin mühafizəsinə kompleks yanaşır*



*__Fəttah Heydərov:__ Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan uğurla inkişaf edir*



*__Eldar İbrahimov:__ Ölkəmizdə ekoloji mühitin yaxşılaşması istiqamətində həyata keçirilən işlərə Yeni Azərbaycan Partiyası da öz töhfəsini verir*



















12 avqust - “Xəzər günü” ilə əlaqədar keçirilən aksiyada çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri Siyavuş Novruzov təmizlik aksiyasının əhəmiyyətindən danışıb. YAP İcra katibinin müavini daha sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətdən bəhs edərək dövlət başçısının ekoloji məsələlərə xüsusi diqqət yetirdiyini bildirib: **“Bu layihələr bilavasitə YAP-ın Sədri, cənab Prezident İlham Əliyevin və YAP Sədrinin birinci müavini, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı əsasında həyata keçirilir. Biz də çalışırıq ki, mütəmadi olaraq bu cür çoxsaylı layihələri uğurla həyata keçirək. Bildiyiniz kimi, YAP-la ETSN arasında fəaliyyət planı haqqında sənəd imzalanıb və biz 2020-ci ilə qədər ardıcıl olaraq bu tədbirləri keçirəcəyik. Bundan əvvəl YAP və ETSN-in birgə təşkilatçılığı ilə “Ətraf mühitin mühafizəsində gənc nəslin rolu” mövzusunda yay məktəbi təşkil olunub. Biz hamımız bir yerdə həmin yay məktəblərində iştirak etdik. Təbii ki, bundan sonra digər proqramların icrası yerinə yetiriləcək”.**

Belə tədbirlərin xüsusi əhəmiyyətindən danışan Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Xəzər dənizinin xalqın sərvəti olduğunu və buna görə də onun ərazisinin təmiz və pak saxlanmasına çalışmağın vacibliyini bildirib. S.Novruzovun sözlərinə görə, Avropa ölkələrində ətraf mühitin çirklənməsinə qarşı aparılan mübarizənin nümunəsi Azərbaycanda daha yüksək formada nümayiş etdirilir.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev jurnalistlərə açıqlamasında bildirib ki, tədbirin keçirilməsində məqsəd Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində ictimaiyyətlə dövlət strukturları arasında əməkdaşlığı gücləndirməkdir: **“Prezident İlham Əliyev keçirilən bütün müşavirələrdə hər zaman ekologiya və ətraf mühit məsələlərinə xüsusi diqqət yetirir. Hər bir ölkənin gələcəyi insanların sağlam mühitdə yaşamasının təmin edilməsi, sağlam olması ilə əlaqədardır. Bu baxımdan bu aksiyada iştirak edən müxtəlif peşə sahiblərini, cəmiyyətin bütün təbəqələrindən olan insanları Xəzərin çirklənməsinin qarşısını almaq məqsədi birləşdirir. Azərbaycan Xəzərətrafı dövlətlər arasında yeganə ölkədir ki, dənizin mühafizəsinə kompleks yanaşır, ETSN-in nəzdində Xəzər Ekoloji Monitorinq İdarəsi fəaliyyət göstərir. Həmçinin Xəzərin sahil zolağı boyunca axarları müəyyən edirik”.**

Xəzər dənizinin Azərbaycana aid şimaldan cənuba qədər sahil zolağı boyunca bu cür təmizlik aksiyaları keçirildiyini deyən F.Əliyev dəniz ətrafındakı iaşə obyektlərinin sahiblərinə də müraciət edib: **“Təmizləyici qurğuların quraşdırılması vacibdir. Sahibkarların bir qismi iaşə obyektlərində belə qurğular quraşdırıb, digərlərinə müraciət edirik ki, belə qurğuları quraşdırsınlar. Nazirlik olaraq təmizlənməmiş bir damcı suyun belə Xəzərə axıdılmasının əleyhinəyik. Çimərliyə gələnlər də yemək qalıqlarını dənizə atmasınlar”.**

Milli Məclisin Regional məsələlər komitəsinin sədr müavini, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov isə “Xəzər günü”nün simvolik bayram olduğunu vurğulayıb: **“YAP və ETSN-in birgə təşkil etdiyi bu tədbir böyük simvolik əhəmiyyət daşıyır. Bu, Azərbaycan dövlətinin təmizliyə, paklığa xidmət edən siyasətinin göstəricisidir. Azərbaycan bu gün dünyanın hər yerindən gözəl görünür”.**

F.Heydərov bütün ömrünü Azərbaycanın çiçəklənməsi və qüdrətlənməsinə həsr edən Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin əbədi və dönməz olduğu fikrini xatırladaraq deyib: **“Onun bu şüarı bizim əlimizdə elə bir bayraqdır ki, onun ucalığını həmişə hiss edirik. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev siyasətinin davamçısı olan Prezident İlham Əliyev də bütün fəaliyyətini Azərbaycanın şəhərləri, kəndləri, həmçinin yollarının təmiz və gözəl olmasına həsr edib. Dəniz kənarının təmizliyi ölkənin təmizliyidir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu yolda inkişaf, halallıq, təmizlik var. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan uğurla inkişaf edir”.**

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov üzvü olduğu ölkə parlamenti tərəfindən ekologiya ilə bağlı bir çox qanunlar qəbul edildiyini və bu qanunların müddəalarının yüksək səviyyədə həyata keçirilməsində belə aksiyaların rolunun da əvəzsiz olduğunu söyləyib.

E.İbrahimov YAP Sədri Prezident İlham Əliyevin rəhbərliyi və YAP Sədrinin birinci müavini, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə mütəmadi olaraq keçirilən bu aksiyalara diqqət çəkərək **“Ölkəmizdə ekoloji mühitin yaxşılaşması istiqamətində həyata keçirilən işlərə Yeni Azərbaycan Partiyası da öz töhfəsini verir”,** - deyib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bu tədbirlərin keçirilməsinin Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaq baxımından əhəmiyyətini vurğulayıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü İlham Əliyev də deputatlar, nazirlik rəsmiləri ilə birlikdə bu tədbirdə Azərbaycan gəncliyinin, partiya nümayəndələrinin, şirkət əməkdaşlarının və demək olar ki, cəmiyyətin bütün təbəqələrinin böyük ruh yüksəkliyi ilə iştirakının təqdirəlayiq hal olduğunu deyib. Deputat bu aksiyanı dövlət və cəmiyyətin ayrı-ayrı təbəqələrinin birliyinin nümayişi kimi qiymətləndirdiyini dilə gətirib və bu aksiyaya qoşulan bütün vətəndaşlara öz təşəkkürünü bildirib.

Tədbir daha sonra incəsənət xadimlərinin çıxışı ilə davam edib.

Sonda onu xatırladaq ki, 12 avqust 2006-cı il tarixindən 5 Xəzəryanı dövlət tərəfindən “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyası imzalanıb və 2007-ci ildən sonra hər il 12 avqust “Xəzər günü” kimi qeyd olunur.

**Qaşqay ZİYƏDDİNOĞLU**







